

FƏRHAD QULİYEV,
YOŞHİHİRO NİŞİYAKİ

# SİVİLİZASİYANIN BAŞLANĞIC NÖQTƏSİ - GÖYTƏPƏ NEOLİT DÖVRÜ ABİDƏSİ

FARHAD GULIYEV
YOSHIHIRO NISHIAKI

# THE STARTİNG POİNT OF CİVİLİZATİON – THE EARLY VİLLAGE OF GOYTEPE

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə çapa hazırlanmışdır**

Supported by the Science Development Foundation under the President of the Republic of Azerbaijan

**FƏRHAD QULİYEV, YOŞHİHİRO NİŞİYAKİ**
FARHAD GULIYEV, YOSHIHIRO NISHIAKI

# SİVİLİZASİYANIN BAŞLANĞIC NÖQTƏSİ - GÖYTƏPƏ NEOLİT DÖVRÜ ABİDƏSİ

# THE STARTİNG POİNT OF CİVİLİZATİON - THE EARLY VİLLAGE OF GOYTEPE

Ант- 26008



**Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu**

Institute of Archaeology and Ethnography
National Academy of Sciences of Azerbaijan

**2012**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun
Elmi Şurasının 28 mart 2012-ci il tarixli iclasının
(5 №-li protokol) qərarı ilə çapa tövsiyyə olunur.

**Fərhad Quliyev, Yoşhihiro Nişiyaki**
"Sivilizasiyanin başlanğic nöqtəsi - Göytəpə neolit dövrü abidəsi",
Bakı-2012, 32 səh.

Kitabça Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş "İlkin sivilizasiyaları əks etdirən arxeoloji komplekslər (Göytəpə neolit dövrü abidəsi-açıq səma altında arxeopark)" adlı layihənin yerinə yetirilməsi planı və mərhələlərinə müvafiq olaraq nəşr olunur. Layihənin əsas məqsədi, Göytəpə neolit dövrü arxeoloji abidəsinin dünya əhəmiyyətliliyini əsas götürərək Azərbaycanda ilkin sivilizasiya problemlərini özündə əks etdirən qədim yaşayış yerinin yerli və xarici mütəxəssislərin iştirakı ilə bir sıra istiqamətlərdə (arxeometrik elmlər) paleobotanika, paleozoologiya, geomorfologiya, antropologiya, traselogiya, paleo-mühit, arxeomemarlıq, və digər elmlərin qovşağında öyrənilməsi və həm də arxeoloji kompleksin əlverişli yerləşmə şəraitindən çıxış edərək açıq səma altında arxeoparkın yaradılmasından ibarətdir.

Azərbaycan və Yaponiya tədqiqatçılarından təşkil olunmuş müvəqqəti yaradıcı kollektivin beynəlxalq müştərək layihəsinin kökündə elmi-tədqiqat işi dayanır. Layihənin gerçəkləşməsi ilə gözlənilən nəticələrin istifadəsi ilk növbədə Azərbaycanın maddi-mədəni irsinin beynəlxalq səviyyədə elmi əsaslı şəkildə təqdimatına yönəlmişdir.

Recommended to be issued under the resolution N5 of the session 28 march 2012
of Scientific Committee of the Institute of Archaeology and Ethnography of the
National Academy of Sciences of Azerbaijan.

**Farhad Guliyev, Yoshihiro Nishiaki**
"The starting point of civilization - the early village of Goytepe"
Baku-2012, 32th

The book is issued under the performance of the plan and stages of the project
"Archaeological complexes reflecting the early civilizations (Neolithic monument of
Goytepe - archaeopark under the open sky)" that became the winner of the 1st compe-
tition of 2011 year's grant (EIF - 2011 - 1(3)) by the Science Development Foundation
under the President of the Republic of Azerbaijan. The main objective of the project is
to learn the ancient settlement of Azerbaijan that reflect itself the early problems of civ-
ilization with the local and foreign specialists together with the joint of different sciences
such as paleobotany, paleozoology, geomorphology, anthropology, traceology, paleo
environment, etc by emphasizing the world significance of the archaeological monu-
ment of Goytepe of the Neolithic period, and finally, regarding the convenient circum-
stance of the archaeological complex, to constitute an archaeopark under the open sky.

The scientific research stands on the background of the international joint project of
the temporal team organized by Azerbaijan - Japan researchers. The use of expected
results by the realization of the project is firstly aimed at the high level scientific presen-
tation of the material - cultural heritage of Azerbaijan.

İSBN 978 9952-8135-3-1

## GİRİŞ

Dünyanın müxtəlif regionlarında aparılan arxeoloji araşdırmalar göstərir ki, neolit dövrünün erkən əkinçiləri ilkin sivilizasiyaların meydana gəlməsində başlıca rol oynamışlar.

Kompleks tədqiqatların nəticələri Orta Şərqdə və Anadolunun cənubunda e.ə. X-IX minilliklərdə insanların yığıcılıqdan istehsal təsərrüfatına keçid prosesini sənədləşdirir. Təsadüfi deyildir ki, bu ərazilər elmdə neolit mədəniyyətlərinin yayıldığı bölgələr kimi tanınır, hətta, bir çox alimlər tərəfindən "neolit kontinenti" və yaxud "qızıl üçbucaq" adlandırılır.

Neolit çağında cəmiyyətin iqtisadi və sosial strukturunda köklü dəyişikliklərin baş verməsi, yeni paleolit dövrü ovçusunun neolit dövründə fermerə çevrilməsi öz təcəssümünü insanlığın tarixində neolit inqilabının formalaşmasında tapdı. Nəticədə, neolit çağı ilk qloballaşma dövrü kimi tarix səhnəsinə çıxdı.

Bəşər tarixində neolit dövrü sıçrayış və sivilizasiyanın başlanğıc nöqtəsi olmuşdur. Qədim istehsal sahələrinin yaranması, qida ehtiyyatlarının çoxalması, əhali artımı, ictimai çətinliklərin genişlənməsi və yeni simvolik sistemlərin formalaşması bu dövrün mühüm xüsusiyyətlərin-

## INTRODUCTION

Archaeological investigations done all around the world show that the early farmers of the Neolithic period ultimately played a significant role on the emergence of the early civilizations.

Results from excavations in the Middle East and Southern Anatolian area have given evidences of the radical changes that occurred during the Xth-IXth millennia BC when communities stopped only gathering and hunting to finally produce their own food with farming and stock-breeding activities. These regions being those where the earliest Neolithic cultures have been discovered, they are called either the "Neolithic continent" or "the golden triangle".

During the Neolithic period, fundamental distinctions within society due to the new economical structure linked with farming and animal husbandry emerged for the first time. This is called the Neolithic revolution. It can also be considered as the first globalization period.

The radical changes that occurred during the Neolithic period have been the starting point of civilization in the history of humankind. The emergence




Cənubi Qafqazda Göytəpə və digər bu tipli arxeoloji abidələrin xəritəsi

Map showing the location of Goytepe and related sites in the South Caucasus

dəndir. Bu baxımdan arxeologiya elminin ən aktual tədqiqat istiqamətlərindən biri istehsal təsərrüfatına yiyələnərək oturaq həyat tərzi keçirən erkən əkinçi-maldar tayfaların formalaşma və məskunlaşma problemidir.

Bir sıra vacib amillər, əlverişli ekoloji durum, Orta Şərqin qədim mədəniyyətləri ilə əlaqələr və sairə Azərbaycanda, ümumən Cənubi Qafqazda qədim istehsal təsərrüfatı sahələri olan əkinçilik və maldarlığın formalaşmasına şərait yaratmışdır. Nəticədə, bölgədə

of different productions together with the population growth, with the beginnings of social complexity and, finally, with the creation of new symbolic systems, are considered to be the most notable features of the period. From this point of view, questions on the early sedentary farming communities and on their production activities are considered to be one of the most actual aims of archaeological research.

A number of important fac-



Orta Şərqin neolit dövrü abidələri ilə sinxron olan yerli erkən əkinçi-maldar tayfalara məxsus yaşayış məskənləri meydana gəlmişdir.

Azərbaycan ərazisində neolit dövrünün erkən mərhələsinə aid yaşayış yerləri, əsasən Gəncə-Qazax bölgəsində Kür çayının orta axarı boyunca yerləşir. İri təpə formasında olan belə məskənlər (Göytəpə. Toyrətəpə, Hüseynqulutəpə, Cinitəpə. Şomutəpə, İlanlıtəpə və başqaları) 0,5-2 hektara qədər sahəni əhatə edir (şəkil 1).

Hal-hazırda dünya arxeologiyasında bu arxeoloji abidələr kompleksi Şomutəpə və yaxud Şomutəpə-Şulaveri mədəniyyəti adı ilə tanınır və YUNESKO-nun qədim arxeoloji mədəniyyətləri siyahısına daxildir.

Şomutəpə mədəniyyəti Azərbaycanda təqribən e.ə. VI minilliyə aid olan erkən əkinçilik və maldarlıq təsərrüfatı, ilkin keramikanın istifadəsi kimi neolit dövrünün bütün əsas atributlarını özündə cəmləşdirir. Bununla belə, Şomutəpə mədəniyyətinin mənşəyi və erkən yerli mədəniyyətlərlə əlaqəsi naməlum olaraq qalır. Hətta bu mədəniyyətin bir sıra xüsusiyyətləri və xronologiyası ilə bağlı məsələlər də hələ tam həllini tapmamışdır. Nəzərə almaq lazımdır ki, Azərbaycanda inkşaf etmiş neolit sakinlərinə aid olan bu mədəniyyət radiokarbon analizlər, bitki və heyvan qalıqla-

tors, like convenient ecological factors and proximity with the Neolithic cultures of the Middle East, probably played a significant role in the domestication of plants and animals in Southern Caucasus. Consequently, early local farming communities have also emerged there, almost at the same time as in the Middle East.

In Azerbaijan, the first settlements referring to an early stage of the Neolithic period were discovered in the middle part of the Kura river, in the Ganja-Gazakh region. The settlements are in the shape of mounds of 0,5 to 2 ha and reaching up to about 8 m high above present day surface. Similar mounds have been found on the other side of the border in Georgia. Altogether, they constitute the Shomu-Shulaveri Culture which is included in the UNESCO list of ancient archaeological cultures.

In Azerbaijan, this culture includes all the specific aspects of the Neolithic, including early farming and husbandry and the use of pottery. It is dated roughly to the VIth millennium BC. However, its origins and its relationships to other cultures remain unknown. Furthermore, the total inventory of this culture and its precise chronological frame are still poorly deter-

rının bərpası, strateqrafiya kimi geniş və müasir qazıntı texnologiyalarından əvvəl müəyyən edilmişdir. Bu səbəbdən də Azərbaycanda ilkin sivilizasiyaların başlanğıc nöqtəsini əks etdirən erkən əkinçi-maldar tayfaların məskunlaşması məsələlərinə aydınlıq gətirmək məqsədilə 2008-ci ildə Göytəpə arxeoloji abidəsində yeni arxeoloji qazıntı işlərinə başlanılmışdır Qeyd edək ki, bu abidə hələ ötən əsrin 70-ci illərində mərhum arxeoloq İ.H.Nərimanov tərəfindən aşkar olunmuşdur (şəkil 2).

mined. This is due to the fact that it was discovered and excavated at a time when modern excavation techniques, such as stratigraphical samplings, recovering strategies for botanical and faunal remains, C14 dating, etc. did not exist yet. Therefore, in order to shed new light upon the early farming communities of Azerbaijan, we started in 2008 a new fieldwork at the site of Goytepe which had first been discovered by I.N. Narimanov in the 70s of the XX th century (fig 2).



*Göytəpənin ümumi görünüşü*

*General view of Goytepe, looking from the west*



## QAZINTILAR

Gəncə-Qazax bölgəsində ən iri arxeoloji abidələrindən biri olan Göytəpə qədim yaşayış yeri Kür çayının sağ sahilinin orta axarında, Tovuz şəhərindən 10 km şərq tərəfdə yerləşir. Göytəpə abidəsi bir sıra digər neolit dövrünə aid təpələrin (Şomutəpə, Qarğalartəpə, Töyrətəpə) əhatəsində olub, Kiçik Qafqaz sıra dağlarının qərb hissəsinin arealına daxildir. Burada hər il təxminən 400 mm yağıntı düşür.

## EXCAVATIONS AT GOYTEPE

The ancient settlement of Goytepe is one of the largest archaeological mounds in the Ganja-Gazakh region. It is situated on the right bank of the middle Kura river, approximately 10 km east of the city of Tovuz. Not far from it are located several other neolithic sites like Shomutepe, Toiretepe and Gargalartepesi. It is on the piedmont (northern part) of the Small




*2008 - 2011 ci illərdə qazılmış sahələrin planı*

*Plan of Goytepe and the excavated areas during the 2008-2011 excavation seasons*

Kiçik Qafqazdan başlanan bir sıra böyük və kiçik çay axınları Kür çayına axaraq ovalığın landşaftını ayırır. Göytəpə belə bir vadinin, Zəyəm çayının qərb terrasında yerləşmişdir.

Göytəpə magistral yoldan (İpək yolu) 150 metr kənarda olub dəniz səviyyəsindən 420 metr hündürlükdə 2 hektardan çox ərazini əhatə edir. Onun diametri 145 metr, hündürlüyü isə 8 metrdir (şəkil 3).

Göytəpə qədim yaşayış yeri sahəsinə görə Şomutəpə mədəniyyətinin ən iri abidələrindən biridir. Tədqiqatlarmızın əsas vəzifələrindən biri bu mədəniyyətin ümumi xüsusiyyətlərini ətraflı izləmək və elmi araşdırmalarda son texnologiyaların tətbiqi ilə abidənin xronoloji konstruksiyasını müəyyən etməkdir.

2008-ci ildə təpənin üst hissəsindən qazıntı sahəsi hərəsi 100 kv metr olmaqla (10x10 m) kvadratlara bölündu. Abidədə 2008-2011- illər ərzində 1000 kv.m2 dən artıq sahədə arxeoloji qazıntı işləri aparılmışdır. Qazıntılar zamanı hələlik bizə məlum olan 8 metr neolit təbəqəsindən 13 tikili horizontu aşkar edilmişdir (şəkil. 4). Abidənin yaş həddinin təyin olunması üçün aparılmış radiokarbon analizlər neolit dövrünün 8 metr mədəni qat yatımının e.ə. VI minilliyin əvvəlindən ortalarına qədər davam etdiyini göstərir.

Caucasus range, a region that receives an annual precipitation of ca. 400mm. The rivers flowing from the Small Caucasus into the Kura cut the landscape of the plain. Goytepe is located on the western terrace of one such river, the Zayam.

The mound extends over 2 ha, at a maximum altitude of c. 420m, 150m away from the highway Baku-Gazakh. It is 8m high and its diameter reaches 145 m.

In order to shed new light upon the early farming communities of Azerbaijan, we started new fieldwork at the site of Goytepe in 2008 (Fig. 2). It is one of the largest settlement sites of Shomutepe culture. The primary objective of this research is to redefine the type assemblage of this culture in detail and establish its chronological framework by conducting scientific excavations using the latest field techniques.

In 2008, excavations started from the top area which was divided into 10x10 m squares. More than 1000 square meters have been excavated during four campaigns in 2008 - 2011.

The Neolithic deposits exposed consist of at least 13 building levels (Fig. 4), comprising approximately 8-m deposits that have been radiocarbon






*Göytəpənin qazılmış sahələrinin sxematik bölgüsü.*

*Schematic section of the excavated squares of Goytepe. Note that the vertical scale is enlarged twice*

Qeyd etmək lazımdır ki, qazıntılar zamanı yaşayış yerinin hələlik materikinə rast gəlinməmişdir. Beləki, daha alt qatda qazılmamış təbəqələr qalır. Göytəpə yaşayış yeri Azərbaycanda və ümumən Qafqazın cənubunda neolit dövründə baş vermiş inkişaf prosesinin əsas xüsusiyyətlərinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Göytəpədə aparılmış arxeoloji qazıntı işləri neolit dövrünə aid tikinti mədəniyyətini, Kür çayının orta axarı boyunca erkən neolit həyat tərzinin inkişafı yollarını və sosial ictimai həyatın öyrənilməsinə şərait yaratmışdır.

dated to the early to mid 6th millennium BC. It must be noted that virgin soil has not yet been reached, and there remain unexcavated deposits further below. The large-scale excavations have allowed us to document not only the Neolithic cultural inventory but also the Neolithic settlement structure, hence the nature of the society and the development of the earliest Neolithic way of life on the Middle Kura.

## ABİDƏNİN MEMARLIĞI

Neolit dövrünün memarlığı müvafiq tikili üsuluna və quruluşuna görə ümumilikdə bir-birinə bənzərdir. Dövrün tikili materialları 30-50x20x8-10 sm ölçüsündə saman tərkibli düz qabarıq formalı çiy kərpiclərdən ibarətdir. Kərpiclər əsasən sarı və qəhvəyi rənglidirlər. Aparılan qazıntılar zamanı burada sıx olan qalın tikilmiş komplekslər (geniş və kiçik dairəvi tikililər), biri-birinə bağlı olan yaşayış evləri, çıxıntılı divarlar, ocaq yerləri və sobalar kimi digər tikililər aşkar edilmişdir. Yaşayış yerinin bəhs edilən dövr üçün səciyyəvi olan dairəvi planlı tikili qa-

## THE ARCHITECTURE

The architectural remains were generally similar to each other in construction technique and distribution pattern throughout the Neolithic sequence. The building materials were plano-convex-shaped mud bricks with straw temper, measuring 30-50x20x8-10 cm. The bricks were made with yellow or brown clay. The most characteristic architectural forms discovered were circular constructions (Fig. 5), with a diameter of approximately 2 to 3.5 m in diameter.

The settlement layout revealed in the excavation area



*Göytəpə qədim yaşayış yerində çiy kərpicdən tikilmiş dairəvi tikililər. Girişi sol tərəfdəndir.*

*Circular construction with clay bins at Goytepe. The entrance is visible to the left.*






*Plan of the architectural remains discovered at Goytepe*

*Göytəpə qədim yaşayış yerində aşkar edilmiş tikililərin ümumi planı*



2A kvadratında aşkar edilmiş dairəvi planlı tikililərdən ibarət həyət yeri.

Circular constructions and the courtyard of Square 2A at Goytepe, looking south

lıqlarının diametri təqribən 2 metrdən 3,5 metrə qədərdir (şəkil 5-6).

Qazıntılar zamanı neolit dövrünün memarlığını əks etdirən tikililər aydın və anlaşıqlı şəkildə aşkar edilmişdir. Qədim yaşayış yerinin biri-birindən aralı məsafədə olan kiçik ölçülü dairəvi strukturları ilə iri ölçülü dairəvi tikililəri əlavə enli divarlarla birləşir (tikililərin diametri 7 - 8 m ölçüsündə). Nəticədə, binaların daxili həyəti meydana gəlirdi. Həyətə giriş isə çox güman ki, hər bir tikilinin əlavə divar kəsişməsindən mümkün olurdu (şəkil 7,8,9).

2008-2011-ci illərdə Göytəpə-

appeared complicated, comprising small and large circular constructions, wing walls, and other structures such as ovens and bins (Fig. 6). However, careful examination revealed a distinct distribution pattern to the buildings. It characteristically contained a circular or oblong unit with a diameter of 7 to 8 m, comprising a series of circular constructions connected with wing walls to enclose a courtyard (Fig. 7,8,9). Each unit was found to have one break in the enclosure wall, which probably functioned as the entrance to the courtyard.







2A kvadratının dairəvi tikililəri

Circular constructions 2A square

də aparılan qazıntılar qədim yaşayış yerinin neolit dövrünə aid olan mükəmməl memarlığını üzə çıxartdı. Səkkiz min il keçməsinə baxmayaraq, Göytəpənin bina tikililərinin yaxşı vəziyyətdə qalması onların funksional mahiyyəti haqqında yeni elmi məsələləri ön plana çəkir. İlkin qazıntılar göstərdi ki, Göytəpə yaşayış yeri öz dövründə dağıntıya məruz qalmadığı üçün, burada olan bina tikililərindən ibarət məhəllələrin kompleks şəkildə təmizlənib açılması mümkündür. Tədqiqatçıların fikrinə əsasən Göytəpədə aşkar olunan bina tikililərinin möhkəmliyi hələlik Azərbaycanın heç bir neolit və eneolit dövrü abidələrində rast gəlinməmişdir.

Bu baxımdan da, qazıntılar zamanı aşkar olunmuş tikililərin bir qisminin konservasiyası tərəfimizdən nəzərdə tutulmuşdur.

Bndan əlavə tədqiqatlardan məlum olur ki, neolit dövründə Azərbaycan və bütövlükdə Cənubi Qafqaz qədim tikinti və memarlıq ənənəsinə malik idi. B.e.ə VI minillikdə Azərbaycanın neolit sakinlərinin aktiv həyat tərzini təmin edən çiy kərpicdən hörülmüş dairəvi planlı tikililər dövrün sosial-iqtisadi inkşafından irəli gələn yeniliklərdən olmuşdur. Göytəpədə aşkar edilmiş tikililər çiy kərpiclərdən ibarət dairəvi planlı memarlıq üslubunu özündə birləşdirən çox əsrlik tikinti təcrübəsini nümayiş etdirir.

The archaeological excavations at Goytepe have only unearthed architecture referring to the Neolithic period. Even after eight thousand years, the building structures are exceptionally well preserved. Our large scale excavations will allow to question scientifically the functions of the different buildings. It has been possible to show how the buildings were linked together, forming several complexes. It is the first time that such a study is possible in Azerbaijan. Due to the excellent preservation of some of them, we plan to make conservation in order for the public to visit and understand how life was organized at that time.

Our research show that Azerbaijan and the whole Southern Caucasus shared the same architectural tradition. Circular constructions made of raw bricks are typical of the period. They are of different sizes and within them were discovered tools and remains of the life of the Neolithic inhabitants of the VIth millennium BC. They were rebuilt over and over during many centuries



## KERAMİKA MƏMULATI

Qazıntılar zamanı Göytəpənin bütün təbəqələrində keramika nümunələrinə rast gəlinir. Saxsı məmulatının gili müxtəlif tərkibli olub əsasən bitki və mineral qatışıqlıdırlar. Bitki və mineral tərkibli keramika demək olar ki, say etibarı ilə eynidir. Mineral tərkibli keramika əsasən abidənin alt qatında üstünlük təşkil edir və üst qata doğru tədricən azalır. Forma verən keramika parçalarının təhlilindən məlum olur ki, oturacaqları düz, qalın divarlı, konusvari və əyri formalı küplər, dopular, dərin xeyrələr, qulpları olmayan kiçik qablar Göytəpə sakinlərinin istifadə etdiyi əsas mətbəx qabqacağı olmuşdur. Keramika məmulatının səthlərinin texniki işlənilməsi çox bəsit formada aparılmışdır (şəkil 10, 11, 12, 13).

Keramik qabların üzərində yapma (yapışdırılma) üsulu ilə düzəldilmiş naxış nümunələrinə də rast gəlinir. Bunların içərisində ən çox istifadə olunmuş naxışlar, qabların ağız kənarını, bəzəyən bir, bəzən isə iki və ya üç uzunsov məməciklər, dalğavari xəttlər, dairəvi və yarımdairəvi, üçbucaq formalı yapmalardır. Bundan əlavə, abidənin üst qatında ağız hissəsi boyalı olan yaxşı bişirilmiş keyfiyyətli keramika nümunələrinə də rast gəlinmişdir. Qabların boyanmasında əsasən qırmızı və ya qırmızımtıl-qəhvəyi rəngli boyalardan istifadə olunmuşdur. Ehtimal etmək olar ki, Göytəpə dulusçuları boyaları yerli xammal olan oxra və ya gematitdən alırdılar. Fikrimizin sübutu kimi yaşayış yerindən aşkar olunan oxranın döyülməsi üçün istifadə olunmuş dən daşını göstərə bilərik.

* * *

## POTTERY

The excavations yielded a large number of artefacts as well as botanical and faunal remains. Pottery was found at all levels. The most common were jars with vertical or incurved walls, followed by a smaller number of bowls, small vessels without handles, and deep bowls. All have a flat base, occasionally displaying traces of a mat impression. Barely any decorated pottery was found; what exists has mostly simple applied relief decoration with one or a few series of circles, oblong knobs (Fig. 10, 11, 12, 13), and wavy lines. Very few specimens of painted pottery with a monochrome pattern around the neck were recovered from the upper levels of the excavation. Plant- and mineral-tempered pottery was found in almost equal quantities. Moreover, the presence of mineral-tempered pottery diminished slightly in the upper levels.





Göytəpədən olan keramika fraqmentləri Pottery shards core from Goytepe





Göytəpədən olan keramika fraqmentləri Pottery shards core from Goytepe

## DAŞ ALƏTLƏR

Qazıntılar zamanı aşkar olunmuş daş alətlərin mənbəyi Kiçik Qafqaz olan obsidiandan ibarətdir. Iri obsidian parçaları seçilib götürüldükdən sonra onlardan səthi düz olan nukleuslar hazırlanırdı. Qəlpələmə üsulu texnologiyasının tətbiqi başlıca olaraq hər iki tərəfi iti uclu ülgüc olan kəsici alətlərin hazırlanması məqsədini daşıyırdı (şəkil 14,15). Bəsit düzəldilmiş belə alətlərdən əlavə, çox sayda çaxmaq daşından iti uclu alət və qəlpə hissələri aşkar edilmişdir. Bunlar çox güman ki, dəri emalı istehsalı üçün və digər

## STONE TOOLS

Flaked stone artefacts were mainly made of obsidian, deriving from sources in the Small Caucasus. The blank production technology for obsidian is principally based on blade detachment using single-platform cores (Fig. 14,15). Apart from simple retouched blades and flakes, the most common tools found were burins and splintered pieces, probably used for processing hides and other organic materials. On the other hand, flint tools were made mostly on crude



*Dəvəgözü daşından olan iti uclu ülgüclər* *Obsidian core from Goytepe*




*Dəvəgözüdən olan nukleus* *Obsidian core from Goytepe*

orqanik materiallar üçün istifadə edilmişdir. Bununla yanaşı, çaxmaq daşından olan alətlər kobud parçalardan hazırlanmışdır. Çaxmaq daşından oraq dişlərinə də rast gəlinmişdir.

Ümumiyyətlə, qazıntılar zamanı müxtəlif funksiya daşıyan daş əmək alətləri aşkar edilmişdir. Bunlara dən daşları, həvəngdəstə alətləri, daş lövhələr, əzmək üçün daş alətlər və əl daşları kimi erkən əkinçi tayfalara məxsus tipik alətlər aiddir (şəkil 16). Əsasən qida istehsalı üçün nəzərdə tutulmuş bu alətlər çox güman ki, boya hazırlanması üçün də istifadə edilmişdir. Buna misal bəzi daş alətlərin qırmızı rəngə boyanmasıdır. Yaşıl rəngə çalan daşdan hazırlanan ucu iti cilalanmış baltalara da rast gəlinmişdir.

flakes. These tools included sickle elements, which were hafted obliquely to a handle.

Further, we found that ground stone tools were quite common. These included all the representative forms belonging to early farming societies, such as ground slabs, mortars, pounding stones, and hand stones (Fig. 16). In addition to food processing, these tools were probably also used for the preparation of pigments: some of the ground stones were clearly stained with red. Polished axes made of green stone were also present.



Göytəpə qədim yaşayış yerində aşkar edilmiş daş alətlər.

Ground stones from Goytepe



## SÜMÜKİŞLƏMƏ VƏ DİGƏR XIRDA TAPINTILAR

Sümükdən düzəldilmiş nümunələr əsasən bizlər, iynələr, qaşovlar, əkin üçün əl oraqları, kürəklər, maral buynuzundan toxalar, çoxlu sayda balta və çəkiclərdən ibarətdir. Aşkar olunmuş ən maraqlı tapıntılar arasında üzəri yaxşı şüyrələnmiş çəkic (onun orta hissəsi zolaqlı, aşağı hissəsi iki tərəfdən çərtmədir) və heyvan fiqurlu əsa başlığıdır. Fikrimizcə, ornamentli çəkic və fiqurlu əsa başlığı tayfadaxili idarəçi-

## BONE TOOLS AND OTHER SMALL FINDS

Of tools made of organic materials, a variety of bone and antler tools were recovered. The most common type was a short pointed awl, followed by spatulas, and knives. Handles of sickles for harvesting were also made of animal bones. Less common but characteristic finds included axes, hammers, picks, and hoes. Among the finds of particular interest can be mentioned a hand-stick of a bone hammer the head of which




Üzərində ornamenti olan toxa
Ornament on the hoe




Heyvan sümüyündən olan balta
Axe from animal bone



*Üzərində ornamenti olan əsa başlığı*
*Ornament on the handstick*



*Göytəpədən aşkar edilən buynuzdan olan çəkic*

*Antler hammer with incised decoration obtained from Goytepe*



*Balta*

*Axe*



liyin əsas rəmzi rolunda çıxış etmişdir (şəkil 17,18,19,20,21 ).

Xırda tapıntılar içərisində çox güman ki, məhsuldarlıq və bolluq rəmzini nümayiş etdirən qadın heykəlcikləri xüsusilə diqqət cəlb edir (şəkil 22.)

Göytəpə yaşayış yerindən aşkar edilən müxtəlif tipli sümük alətlərin bir qismi əkinçilikdə istifadə olunurdu. Bunlar əsasən torpaqda əkin işlərinin görülməsi üçün buynuzdan düzəldilmiş müxtəlif tipli, üzərində bir və yaxud bir neçə dəlikləri olan qazma

is in the shape of an animal perfectly smoothed on the surface with wavy grooves in the middle and notches on both bottom sides. It is possible that such a decorated hammer and shaped hand-stick top were a symbol of leadership within the group, or scepter ( fig 17-21).

Among the small finds, female figurines, probably representing a fertility symbol, are worth mentioning (Fig. 22).

Several different types of bone artifacts which have been discov-




*Göytəpə yaşayış yerindən aşkar edilmiş gil heykəlciklər (eyni əşyanın iki müxtəlif görünüşü)*

*Clay figurine from Goytepe (two different views of the same object)*

alətləri və toxalardır. Torpaq işlərində istifadə edilmiş sümük məmulatları rəngarəng olub müxtəlif çeşidlidirlər. Bu onu göstərir ki, Göytəpə sakinləri əkinçilikdə yüksək texnoloji inkişafa malik olmuşlar. Belə ki, Göytəpə sakinlərinin torpaq işlərinin görülməsində müxtəlif çeşidli alətlərdən istifadəsi onların torpaqla düzgün rəftarını bildirir.

Göytəpənin sümük alətləri arasında dəri istehsalını şərtləndirən bir sıra məmulatlara da rast gəlinmişdir. Heyvanın dərisinin soyulması və emalı ilk növbədə geyim ehtiyatı ilə bağlı olmuşdur. Qeyd etməliyik ki, Göytəpədə toxuculuğu əks etdirən materiallara rast gəlinmişdir Bunlar əsasən keramikadan olan iy başlıqları və sümükdən olan iynə və bizlərdir. Bu tapıntılar Göytəpə sakinlərinin təsərrüfat həyatında dəriçilik və toxuculuğun mühüm yer tutduğunu göstərir.

ered at the settlement of Goytepe help to understand the different economical activities made on the site.

Some of the artifacts, for instance, have been used for farming. These include digging tools and hoes with one or several perforations made from antler. These instruments show that the inhabitants of Goytepe possessed a high technological level in agriculture. This will be further confirmed thanks to the analysis of paleo-botanical remains discovered in the silos, hearths, and/or in other containers at the site.

Among other bone tools from Goytepe are those dealing with hide processing. Stripping off the animal skins was first dealing with clothing activities. Many pointed tools like awls are included in this process. But weaving activities are already present too, as demonstrated by the presence of spindle-whorls made from clay.



## BİTKİ VƏ OSTEOLOJİ QALIQLAR

Qazıntılar zamanı aşkar olunmuş bitki qalıqları geniş çeşidli arpa və buğdadan ibarət olmuşdur. Göytəpənin bitki qalıqları arasında arpa və buğda xüsusilə mühüm əhəmiyyət kəsb edir. Çunki bü bitkilər Suriya və Türkiyə kimi Orta Şərqin neolit yaşayış yerlərində nadir hallarda rast gəlinir. Ilk baxışdan Cənubi Qafqazda arpa və buğdanın mövcud olması, əkinçiliyin Orta Şərqdən "birbaşa tətbiqinə" işarə olsa da, digər tərəfdən isə arpa və buğdanın növlərinin üstünlük təşkil etməsi və ciddi tələbatın olması faktı başqa digər fərziyyələrin, yəni arpa və buğdanın mənşəy etibarilə yerli köklərə əsaslanması məsələləri üzərində düşünməyə bizə əsas verir. Göytəpədə aparılan ilkin tədqiqatlar göstərir ki, yerli neolit sakinlərində maldarlıq güclü inkşaf tapmışdır. Yaşayış yerində qoyun, keçi, inək və donuz kimi əhilləşdirilmiş ev heyvanlarının çoxsaylı fauna qalıqları aşkar edilmişdir. Onların ətraflı öyrənilməsi çox güman ki, Cənubi Qafqazda heyvanların əhlilləşdirilməsi məsələlərinə aydınlıq gətirməklə yanaşı, həm də, sümükişləmə məmulatının zəngin olan ərazidə istehsal texnologiyasına da aydınlıq gətirməyə şərait yaradacaq.

## PLANT AND ANIMAL REMAINS

The plant remains that were identified in the excavations include a wide variety of domesticated plants, notably barley and wheat. Naked barley and free-threshing wheat are of particular significance because these crops are rather rare at Neolithic sites in the Middle East, such as in Syria and Turkey. While the presence of barley and wheat in the South Caucasus may indicate direct "introduction" of farming from the Middle East, the strong inclination towards the cultivation of the naked and free-threshing types urges consideration of other possibilities. Faunal remains of domesticated sheep, goats, cattle, and pigs were also recovered in abundance. Their full examination is still in progress and is expected to contribute to clarifying not only animal domestication in the South Caucasus but also manufacturing technique in the area's rich bone tool industry.

## NƏTİCƏ VƏ GƏLƏCƏK TƏDQİQATLAR

Göytəpədə aparılan ilkin tədqiqatlar göstərir ki, abidə Qafqazın son neolit dövrünü əks etdirən qədim erkən əkinçilərin - Şomutəpə mədəniyyyətinə aiddir. Göytəpə arxeoloji kompleksinin üstünlüyü məzmun etibarilə daha keyfiyyətli məlumatlar ilə asosiasiya olunmasıdır. Tədqiqatlar zamanı abidədə əsaslı statistik strateqrafiya müayinəsi aparılmışdır. Materiallar müvafiq olaraq e.ə. VI minilliyin əvvəlinə və ortalarına aid edilir və yaşayış yerinin ümumi mədəniyyətini və eləcə də, xronoloji inkişafını müəyyənləşdirməyə əsaslı zəmin yaradır. Əlavə olaraq, Göytəpənin memarlıq üslubunun mükəmməl mühafizəsi, yaşayış tikililəri ilə əlaqəli əşyaların (istehsal üçün nəzərdə tutulmuş əmək alətləri) məkan etibarilə bir yerdə aşkar olunması dövrün təbiəti və cəmiyyəti haqqında, Göytəpə sakinlərinin həyat tərzinin mümkün rekonstruksiyasına şərait yaradır.

Yuxarıda qeyd edilənlər 2011-ci ilə qədər aparılan araşdırmaların ilkin nəticələrinə aiddir. Bu baxımdan hələlik, Göytəpədə neolit döneminin öyrənilmiş qatları haqqında məlumatımız vardır. Gələcək qazıntılar isə abidənin materikə qədər ki, növbəti qatlarının öyrənilməsinə imkan yaradacaqdır.

2011-ci ildə Göytəpə ətrafındakı digər neolit dövrü yaşayış yerlərinin axtarılması üzrə tədqiqatlar aparılmışdır. Nəticədə, Kür çayının orta axarı boyunca bəhs olunan dövrün daha erkən forması haqqında və mezolit dövrünün təsiri ilə bağlı bir sıra məlumatlar əldə edilmişdir. Gələcək tədqiqatlarda Azərbaycanda erkən əkinçilik mədəniyyətinin mənşəyi və ondan sonrakı dövrlərdə meydana gəlmiş yerli arxeoloji mədəniyyətlərlə əlaqələri diqqət mərkəzində olacaqdır.

## SUMMARY AND FUTURE PROSPECTS

Our fieldwork reveals that Goytepe was a typical Shomutepe culture settlement. The cultural assemblages contain almost every type of artefact recovered from the original excavations of Shomutepe and related sites. The advantage of the Goytepe assemblages lies in their association with much finer contextual information. This enables us to examine the assemblages statistically with solid stratigraphic evidence. The materials were reliably dated to the early to middle part of the 6th millennium BC and serve as a valuable source for a definition of the cultural assemblage of the settlement as well as its chronological development. In addition, the excellent preservation at Goytepe provided a unique opportunity to examine the architectural techniques, the settlement structure, and the spatial distribution of the associated objects, all of which enables an investigation of the nature of the settlement and its society through contextual evidence.

The above is a summary of the excavation results up to the 2011 season (Fig. 16). The picture of the Neolithic at Goytepe is yet limited to its later phase. The earlier phase should be revealed through the further excavations planned until virgin soil is reached. In addition, since the 2011 season, we have been conducting a site-reconnaissance survey in the region encompassing Goytepe to locate even earlier sites, which may include Mesolithic and aceramic Neolithic settlements. The combination of the excavation and the survey should ultimately lead to a better understanding of the origin of the Neolithic culture on the Middle Kura.

## AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMİYASININ ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTUNUN TOVUZ RAYONUNUN GÖYTƏPƏ NEOLİT DÖVRÜ ABİDƏSİNDƏ ÇALIŞAN EKSPEDİSİYANIN ÜZVLƏRİ

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI, ARXEOLOGİYA ETNOQRAFİYA İNSTİTUTU**

Dr. Fərhad Quliyev, Fuad Hüseynov, dr. Olqa Brelyova, dr. Nərgiz Hacızadə, Orxan Zamanov, Yaqub Məmmədov, Şahin Səlimbəyov, Zəki Cəfərov.

**Tələbələr;** Elina Muradova, Aygün Əliyeva, Mircəfər Mirqədirov.

**YAPONİYA TOKİYO UNİVERSİTETİ (MUZEY UNİVERSİTETİ)**

Prof. Yoşihiro Nişiyaki, dr. Seyji Kadovaki, Kazuya Şimoqama, dr. Yui Arimatsu, Çia Akaşi, Şoqo Kume, dr. Ken-İçi Tanno, dr. Yuiçi Hayakava, dr. Takahiro Odaka.

## INSTITUTE OF ARCHAEOLOGY AND ETHNOGRAPHY NATIONAL ACADEMY OF THE SCIENCES OF AZERBAIJAN EXPEDITION MEMBERS OF THE NEOLITHIC MONUMENT OF GOYTEPE, TOVUZ REGION

**INSTITUTE OF ARCHAEOLOGY AND ETHNOGRAPHY NATIONAL ACADEMY OF THE SCIENCES OF AZERBAIJAN**

Dr. Farhad Guliyev, Fuad Huseinov, Dr. Olga Brilyova, Dr. Nargis Hajizade, Orkhan Zamanov, Yagub Mammadov, Shahin Selimbeyov, Zaki Djafarov.

**Students:** Elina Muradova, Aygun Aliyeva, Mirjefer Mirgedirov.

**UNIVERSITY OF TOKYO (The University Museum)**

Prof. Yoshihiro Nishiaki, Dr. Seiji Kadowaki, Kazuya Shimogama, Dr. Yui Arimatsu, Chie Akashi, Shago Kume, Dr. Ken - ichi Tanno, Dr. Yuichi Hayakawa, Dr. Takahiro Odaka.



## İstifadə edilmiş ədəbiyyat siyahısı
list of references

Guliyev, F., Huseynov, F., Almamedov, H. and Hacizade, N.
2009 Göytəpə Neolit dövrü yaşayış məskənində aparılan arxeoloji qazıntılar: in Azərbaycanda Arxeoloji Tədqiqatlar 2008, pp. 17-20.

Guliyev, F., F. Huseynov and H. Almamedov
2009 Excavations of a Neolithic settlement at Goytepe (Azerbaijan): in Proceedings of the International Symposium Baku: Azerbaijan - Land between East and West, April 1-3, 2009, pp. 29-30.

Guliyev, F., Nishiaki, Y., Huseynov, F., Kadowaki, S., Tanno, K., Hayakawa, Y., Hacizade, N., Babayeva, T., Kume, S., Shimogama, K., Arimatsu, Y. and Akashi, C.
2010 Göytəpə Neolit yaşayış yerində arxeoloji qazıntılar (Tovus rayonu): in Azərbaycanda Arxeoloji Tədqiqatlar 2009, pp. 45-54.

Guliyev, F., and Nishiaki, Y.
2012 Excavations at the Neolithic settlement of Goytepe, the middle Kura Valley, Azerbaijan, 2008-2009. Proceedings of the 7th International Congress of the Archaeology of the Ancient Near East. Wiesbaden: Harrassowitz Verlag.


Fərhad Quliyev


Fuad Hüseynov


Orxan Zamanov


Shago Kume


Yoshihiro Nishiaki


Seiji Kadowaki


Kazuya Shimogama


Yui Arimatsu




Yaqub Məmmədov


Elina Muradova


Mircəfər Mirqədirov


Olqa Brilyova


Chie Akashi


Şahin Səlimbəyov


Aygün Əliyeva


Zəki Cəfərov

Çapa imzalanıb: 06.04.2012
Formatı: 70x100 1/16. Ofset çapı.
Həcmi 2.
Sifariş № 38. Tiraj 500

CBS POLYGRAPHIC PRODUCTION
Tel 447-75-05, Faks 447-75-04

mətbəəsində çap olunub


Ant-269008